# *UNUDULMAZ ZƏRİFƏ XANIMIN ƏZİZ XATİRƏSİNƏ*

*O ağıl, o kamal , sədaqət rəmzi,*
*Bənövşə fəslində tərk etdi bizi.*
*Üstünə tökülən güllər ağladı,*
*Ona ana deyən dillər ağladı.*
*Analıq etdiyi neçə oğul, qız,*
*Parlaq istedadlar qaldı anasız.*
*O qüdrət timsalı, böyük sərkərdə*
*Ağladı dözməyib bu acı dərdə.*
*Tabutun üstündə əyilib başı,*
*Güllərə qarışdı onun göz yaşı.*
*Kişilər ağlasa, ağlayar vətən,*
*Zəriflər zərifi, Zərifəmiz sən -*
*Nə ülvi qadından, nə zəngin xilqət,*
*Sənsiz gözü yaşlı qalan məhəbbət*
*Sənin şöhrət oldu təmiz adına.*
*Eşq olsun qüdrətli o sərkərdənin*
*Qəlbini fəth edən müdrik qadına!*

*Mirvarid Dilbazi*
*1985*